# VƏTƏN VƏ HƏSRƏT QOXULU POEZİYA




*Şahmar Əkbər oğlu Əkbərzadə 30 dekabr 1941-ci ildə Ağdam rayonunun Çəmənli kəndində doğulub.*

*1958-ci ildə Mahrızlı kənd orta məktəbini, 1960-cı ildə Şuşa Pedaqoji Texnikumunu 1965-ci ildə M.F.Axundov adına Dillər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini bitirib.*

*Bir neçə il Çəmənli kənd orta məktəbində müəllim işləyib, 1968-ci ildə Bakı şəhərinə köçüb "Azərbaycan gəncləri" qəzetində jurnalist, sonralar şöbə müdiri kimi fəaliyyət göstərib. "Kommunist" qəzetində müxbir və şöbə müdiri olub.*

*1990-cı ildə "Mədəniyyət" qəzetini təsis edərək ömrünün sonunadək qəzetin baş redaktoru vəzifəsində çalışıb.*

*"Anama layla", "Sevgi borc verilməz", "Ona yanıram ki...", "Haqqa pəncərə" kitablarının müəllifidir.*

*2000-ci il avqustun 30-da Bakı şəhərində dünyasını dəyişmişdir.*

***"Şahmarın yaradıcılığını dəyərləndirənlərin başında ustadımız Bəxtiyar Vahabzadə dayanır. Ədəbiyyata gəlişi də ilk dəfə onun xeyir-duası ilə olub. Ünlü Azərbaycan şairləri Nəbi Xəzrinin, Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Məmməd Aslanın və başqalarının Şahmar yaradıcılığına verdiyi qiymət onun poeziyasının yaşarılığına tutarlı zəmanətdir.***

***Şahmar Əkbərzadə haqqında çox yazmaq olar, nə qədər yazılır-yazılsın, yenə azdır. O, bizim sərhədsiz ruhumuzdur".***

***İrfan Ünvər Nəsrəddinoğlu***

O, bu dünyada 58 il yaşadı. Elə böyük zaman kəsiyi deyilsə də, yaşantılarına, yazılarına, daşıdıqlarına baxanda düşünürsən ki, yenə şükür Allaha, bu boyda yük, fikir, əzab, ağrı ilə nə yaxşı 30-da, 40-da qırılmadı həyat yolu, tükənmədi ömür payı... Hərçənd, özü də ölümə inanmırdı, itkinliyi qəbul eləmirdi, yoxluqla barışmırdı, deyirdi ki, "ölüm də yalandır, itki də yalan, dünyada müqəddəs çevrilmələr var." Beləcə, yavaş-yavaş bir ovuc Vətən torpağına döndü, dağdağan ağacıtək sərhəddə bitdi, Qarabağ ənginliklərində qanad çalan qartal oldu Şahmar Əkbərzadə... İndi, cismani yoxluğunun iyirminci ilində doğma el-oba ətirli, təbiət misallı yaşıl, təzə-tər, səma boyda geniş, nəhayətsiz, bir az nisgil, hicran qoxusa da, pessimizmi yaxın buraxmayıb nikbin duyğular göyərdən misralarını xatırlayanda, şair yanğısına, ucalığına, uzaqgörənliyinə heyrətlənməyə bilmirsən. Daha dəqiq, Şahmar hələ Qarabağlı günlərimizdə, qədim yurd yerlərinə əlimiz çatan, ünümüz yetən dönəmlərdə ürəyinə nəsə damırmış kimi, Qarabağ həsrəti çəkən, Ağdam nigarançılığı yaşayan tək-tək ziyalılardan idi:

*Olarmı təcili teleqram verim,*
*Qönçə balaları solan güllərə.*
*Sovqat öpüşüm var, necə göndərim,*
*Çörəkli çöllərə, barlı çöllərə?*

*Bir quşam mənimki gətirib belə,*
*Çıxmaz ürəyimdən Əppəkli dərə.*
*Həsrətim çatarmı görən poçt ilə,*
*Qızıl kövşənlərdə bildirçinlərə?!*

"Mərkəzi poçtxana" şeirinin qələmə alındığı yetmişinci illərdə nəinki bir qarış ərazimiz işğala məruz qalmamış, nankor qonşuların torpaq iştahası heç hələ açıq müstəviyə keçməmişdi. Amma müəllif "bu payız küsəcək məndən Qarabağ, yollarda qalacaq gözü yolların" – deyə, çox qorxur, "üstə dizin-dizin iməklədiyi torpağın könlünü necə alacağını" düşünür, "tamarzı könlünü bir acı yovşana yetirə bilən" teleqrafçının morze əlifbasını Tanrı sayır:

*Mənə kod göstər ki, zəng vura bilim,*
*Dağların marala qalan çağına.*
*Pərişanlığımı çatdıra bilim,*
*Otların sarala qalan çağına.*

"Anamdır, bəs ona nə təhər deyim, yanına gəlməyə yoxdur macalım" dərdli, fikirli müəllifin belə peşmanlığı, narahatlığı isə ilk növbədə, yaxşı övlad olmağından, soy-kökünə bağlılıqdan, daha sonra "payız sularının layla


Çingiz Aytmatov qonağımızdır

səsini, anasının şəfaverici ətrini başqa ünvandan ala bilməyəcəyindən, qəlbinin göynərtisini teleqraf tellərinin o yerlərə aparıb çatdırmayacağından irəli gəlir:

*Mərkəzi poçtxana, sifarişim var,*
*Amandır qoyma ki, gec eləsinlər!*
*Xəbər ver, cənuba köçən durnalar*
*Bu gecə qəlbimdə gecələsinlər...*

Vətənpərvərlik duyğularının təbliği, müqəddəs Azərbaycanımızın tərənnümü Şahmar Əkbərzadə yaradıcılığının ana xəttini təşkil edir. Mövzusunu doğma məmləkətin insanından, dağından, düzündən, havasından, suyundan alan bu poeziyanın əsas ideyası Allahın bizlərə bəxşişi olan həmin nemətlərin, dəyərlərin qədrinin bilinməsi, unudulmaması, göz bəbəyimiz kimi qorunması, özgələrin öhdəsinə buraxılmamasına çağırışdan ibarətdir. Özü də müəllif – az əvvəl də vurğulamışam - qəribə bir öncəgörmə ilə məlum faciələrdən çox-çox əvvəl, necə deyərlər, dünyanın düz vaxtlarından həyəcan təbilini döyəcləyir, “gözlülər var, Zəngilanı görməyib, Kəlbəcəri, Mincivanı görməyib, Yardımlıya, Laçına hay verməyib” harayı qaldırır:

*Üzdən ötüb baş vurmuruq dərinə,*
*Bilirikmi Qaragölün dərdi nə?*
*Dəm tuturuq yaxınların dərdinə,*
*Ay göllərim, irmaqlarım, necəsiz?*
*«Dara duşmuş» torpaqlarım, necəsiz?*

Sovet dövrünü görənlər yaxşı xatırlayırlar ki, bölgələrin, uzaq kəndlərin perspektivsizliyi, kolxoz-sovxoz istismarı, sosial infrastrukturunun zəifliyi üzündən sakinlər, xüsusən də gənclər iri şəhərlərdə, paytaxtda, Rusiyada yaşamağa üstünlük verirdilər. Nəticədə, ucsuz-bucaqsız ərazilərin boşalması, qoca, əlsiz-ayaqsız insanların ümidinə qalmasından əlavə, nəhəng meqapolislər hazırlıqsız, tələbləriylə uyğunlaşmayan saf “anauşaqlarını udur”, bədbəxtə, yazığa çevirirdi. Əlbəttə, baxımsız, ot basmış yollar, həyət-bacalar, hörümçək toruna düşən ev-eşiklər, qayğıya həsrət valideyn giley-güzarı ilə müşayiətlənən belə acınacaqlı durum, daha çox onun gələcəkdə yaradacağı problem və təhlükələr məmləkəti qarış-qarış gəzib dolaşan şairin heç ürəyincə deyildi. Əksər hallarda isə oxşar vəziyyətin harın, məsuliyyətsiz, nəfsiiti məmurlar tərəfindən süni şəkildə yaradılmasına xeyli qəzəblənir, əli bir yana yetməyəndə “azğınlar var, aza-aza yolları, aşındırır yamacları, yalları. Niyə düşmür yanlarına qolları? – deyə qarğışvari sual edirdi.

*Şahmar Əkbərzadə çox istedadlı şair idi. Bu məziyyət onun publisistikasına bir şirinlik bəxş etmişdi. Orijinal dəst-xətti, özünəməxsus yazı üslubu vardı. Qələmindən nə çıxsa, maraqla qarşılanır, yaddaşlara iz salırdı.*

*Yaxından tanıyanlar gözəl bilirlər ki, o, necə etibarlı və mehriban insandı. Dünyanın var-dövləti, şan-şöhrəti eyninə gəlməzdi. Başdan-ayağa vətən üçün çırpınan bir eşq idi. Elə bir eşq ki, özünün təbiri ilə desək, “əcəl taxta çıxıb, kama çatsa da”, yenə də Şahmara əli yetmədi. Çünki “Vətən torpağını geyib əyninə”, əslində varlığından artıq sevdiyi torpağımıza qovuşdu.*

*Şahmarın adı çəkiləndə qüssələnən könlümüzə bir təsəlli üz tutur. Sanki ondan yadigar qalmış misralar nikbinliyə çıraq tutan aynaya dönür. Hər kəlməsində, sözündə, misrasında vətən məhəbbətinin ülviliyi duyulur. Ürəyinin alovlarından libas geyinmiş poeziyasında külli Qarabağın min-bir mənzərəsini görürük. Sanki xiffətimizə od vurulur, dərdimiz damla-damla süzülərək eləcə külə dönür. Dünənimiz dirilir, yeddi arxa dönənimizlə üz-üzə gəlirik. Zəngəzura, Göyçəyə, Kəlbəcərə, Cəbrayıla qayıdırıq. Duyğularımız necə də ülviləşir, könlümüz tarixi yurd yerlərimizə qanadlanır.*

*Flora Xəlilzadə*

*Yapışmışıq elə «ucqar» sözündən,*
*Batırmışıq çeşmələri gözündən!*
*Havaxtacan qansızlığa dözüm mən?*
*Ay şəfalı qaynaqlarım, necəsiz?*
*Loğmannəfəs bulaqlarım, necəsiz?*

Son məqamda yenə də ağsaqqal, ziyalı öyüdündən ibrət alacaqlarını düşünüb sərt tənqidi notlarla “ey Vətəni ana Vətən sananlar, yerə-yurda dildə, sözdə yananlar, yaylaqları yaydan-yaya ananlar”a üz tutur, “ay evində qonaqlarım, necəsiz?” rişxəndli sorğu ünvanlayır, “biz damarıq, Vətən çarpan ürəkdir, ona yanan mərd ogullar gərəkdir! Boş-boş «Vətən!», «Vətən!» demək hənəkdir!” qənaətinə gəlir:

*Odlar Yurdu, adın kimi ad varmı?*
*Sənin kimi ocaq varmı, od varmı?*
*Heç Vətənin ucqarı da olarmı?*
*Uzaq-uzaq oylaqlarım, necəsiz?*
*Odsuz qalan ocaqlarım, necəsiz?*

Hələ İttifaq ailəsində zorən müttəfiqlik təlqininin belə, səmimiyyətinə inanmayan Şahmarın xarakterində, anlamında və qələmində “məğlubiyyət”, “təslimçilik”, “əsarət” ifadələri olmadığından, “böyük qardaş”ın bizə yuxarıdan aşağı baxması, intellektual uğurlarımıza sahib çıxması, təbii sərvətlərimizi talayıb aparması ilə barışa bilmirdi. Ümumiyyətlə, onda özünütənqid çox güclüdür; poeziyasının spesifik məziyyətlərindən biri də rəqiblə mübarizə, düşmənin mühasirə halqasını qırmağa cəhdlə yanaşı, bizləri aciz duruma düşürən mənfiliklərimizi qırmaclamaqdır:


Qırğızıstana ailəvi səfər


Qələm yoldaşları ilə birgə

*“Biz həmişə közdə isinməyə adət etmişik. Közü öz qabağımıza çəkmişik. Və ağlımıza gəlməyib ki, bu köz nə vaxtsa bizi üşüdə bilər. Bəlkə elə buna görədir ki, Şahmarın ruhu qarşısında titim-titim titrəyirik”.*

***Hidayət Elvüsal***

*Körpü mənim, keçən özgə,*
*Bulaq mənim, içən özgə.*
*Əkən mənəm, biçən özgə.*
*Döz, bağrı daş olan könlüm!*

“Ona yanıram ki, əsrlər boyu sabahı düşünüb, daşınmadıq heç, düşünmək haqqımız özgələrdədir, onu qaytarmağı düşünmədik heç” qayğılı, “ona yanıram ki, öz varımızı özgəyə pay verib, ona əl açdıq. Yadların dilindən tərif diləndik, yalançı şöhrətə-şana əl açdıq” aldanışlı, “Şərəf lövhəsi”nə vurdular bizi, düşdü ayaqlara öz şərəfimiz” qəzəbli lirik qəhrəman bütün bunların məntiqi davamı olaraq “ona yanıram ki, Burlaxatunun ruhu alovlanar, məzarı inlər” fikrini qətiləşdirir və Qiyamət gününün cəzasından qorxur:

*Səyi bəy eyləyən dastançıya bax,*
*Bostan tanımayan bostançıya bax,*
*Pulla böhtan deyən böhtançıya bax,*
*Böhtan çörək olur, Allah amandır!*
*Namərdlər birləşir, mərdlər əyişir,*
*İmanlar, məbədlər, pirlər dəyişir,*
*Məqamlar dəyişir, yerlər dəyişir,*
*İblis mələk olur, Allah amandır!*

Lənətlədiyi bəzi məqamların kökü isə şübhəsiz ki, keçmişlərə gedib çıxır. Yəni dövrün, indinin ağrı-acıları, qopmaları, pərakəndəliyi önündə tarix cavabdehdir, günahkardır; göstərilən səbəbdən həm tarixdəki, həm də tarixi ədalətsizliklərlə savaşır, regional güclərə, dünya imperializminə cihad elan edir. Bu mənada, ən yaralı yeri Azərbaycanın iki hissəyə parçalanmasıdır. Şahmar müəllim üçün bütün ayrılıqların, bölünmələrin başında məhz Gülüstan, Türkmənçay müqavilələri gəlir. Və 1979-cu ildə qonşu ölkədə Pəhləvi rejimi devrilərkən hədsiz fərəh içərisində yazırdı ki, “dağıldı tifağı şahənşahlığın, qaysaq tutacaqmı hicran dağları? Sevincim sinəmi deşib çıxmamış, arzumu gözümdə qoymayın barı...” Vətənini ikiyə bölən sənədin şah arxivindən çıxarılıb gətirilməsini təvəqqe edən şair ona tütün büküb eşmə düzəltmək niyyətindədir. Məqsədi, 151 il (1828-1979) həsrətdə qovrulan bir xalqı yandıran bədnam sazişin özünü oda qalamaqdır:

*Hardadır Türkmənçay müqaviləsi?*
*Gətirin, gətirin, bir eşmə eşim.*
*Çəkib tüstüsünü ciyərlərimə,*
*Püfləyib hicranın gözünü deşim!*

Lakin təəssüf ki, həmin sətirlər müəllifinin arzusu çin olmur, istəyi gözündə qalır; çünki sovet zirehinin dağıdılmasına, SSRİ-nin tikanlı məftillərinin sökülməsinə də 10 il vardı. Hələ o yerlərdə ayrılıqlar at oynadacaq, nisgillər meydan sulayacaqdı... Gözüyaşlı Arazın sahillərinə toplaşıb uzaqdan salamlaşan, hal-əhval tutan doğma qardaş-bacıların əlləri bir-birinə çatmayacaq və bu, dərin utanc, xəcalət doğuracaqdı. Onunçün də sərhəd kənarında bitən, çarpaz budağında iki sağsağan yuva quran dağdağan ağacını özündən qat-qat məğrur, qürurlu, xoşbəxt sayır: “Xəbər daşıyırdı quşlar, xoş xəbər, hicran qovrulurdu bu hay-haraydan. Çör-çöplər yuvada öpüşürdülər, biri o taydandı, biri bu taydan...” Eləcə də azad, hər hansı maneə, hüdud tanımayan sağsağanlara qibtə edir, həsəd aparır:

*Sərhəd kənarında cavan yaşımda,*
*Həsədim utanıb yerə girirdi.*
*İki quş dimdiyi ağac başında*
*Vətəni vətənə birləşdirirdi.*

“Yer üzündə həsrət, möhnət sarıdan, bizdən varlı yaratmayıb Yaradan...” Nəhayət, çoxdan gözlənilən vüsala yetmək də var imiş qismətimizdə... Birləşə, bütövləşə bilməsə də, imperiya buxovlarını qırıb dövlət müstəqilliyi qazanan respublikamız qapılarını bütün dünyaya, xüsusən də müxtəlif yerlərdə yaşayan soydaşlarımızın üzünə açır, qarşılıqlı səfərlər, get-gəllər başlanır. Qanbir, canbir insanlar uzun illərin ayrılığından sonra görüşə, ümumi Evləri saydıqları ölkəmizin ziyarətinə tələsirlər. Ünlü azərbaycanlı, məşhur cərrah və ictimai-siyasi xadim, “Varlıq” jurnalının baş redaktoru Cavad Heyət də Bakıya təşrif buyurur.

*Güvəndiyi dağlara qar yağması, pir bildiyinin odu öz qabağına çəkməsi, pünhan sirrini söylədiyinin o sirri düşmənə faş eləməsi, sərvəti yadları yağ-balla dolandıran yurdun övladlarının isə yavanlığının daim göz yaşları olması kimi dərdlər Şahmar Əkbərzadəni heç vaxt rahat buraxmırdı. Üzü dönmüş dünyada adamların adamlığını itirməsi, kələklə gələnin küləklə getməməsi, çaqqalın qurda dönüb, tülkünün şirləşməsi, namərdlərin birləşib mərdləri əyməsi, qısaca desək, insanların yaşayıb insanlığın ölməsi (Bəxtiyar Vahabzadə) şeirlərində böyük ağrı ilə təsvir olunur.*

*Bütün bunlar ürək ağrılarına çevrilmişdi. Elə ürək ağrılarından da haqq dünyasına qovuşmuş şair-publisist Şahmar Əkbərzadə çiçək yerinə həsrət qoxulayan xalqın vicdanlı oğluydu. Buna görə də istər publisistik yazılarında, istərsə də şeirlərində "vətən daşı" olmaq istəyi yaşayır. Onun poeziyası haqqında türk dünyasının görkəmli qələm sahibləri - Bəxtiyar Vahabzadə, Çingiz Aytmatov, Oljas Süleymenov və başqalarının ürək sözləri bu fikrin təsdiqidir...*

*Səməd Məlikzadə*

Azərbaycanın böyük bir hissəsinin şəfalı torpağına, havasına, suyuna tamarzı şairimiz qonağı yola salarkən "əvəzimdən Savalanı soraqla, nərgizini, laləsini qucaqla, Təbrizdə Ərk qalasını qucaqla, Əlincəmin duruşundan salam de!" söyləyir:

*Duz çevirdim "Varlığ"ının sözünə,*
*Tamarzıyam qardaş, özüm özümə,*
*Bəxtiyardan Şəhriyarın gözünə,*
*Baxışına baxışımdan salam de!*
*Utanıram hər baxanda yaşıma,*
*Bir alınmaz qala çıxıb qarşıma,*
*Çatan kimi Səhəndin başdaşına,*
*Yonulmamış başdaşımdan salam de!*

Şeirin bir özəlliyi də ondan ibarətdir ki, müəllif o taylı-bu taylı şairlər, alimlər, fikir adamları ilə öyünür, Məmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə, Xudu Məmmədovun adını sadalamaqla, onları əlaqələndirib salam göndərməklə fəxarətlənir: "Xalılarda köz-köz olub odumuz, ilmə-ilmə geri dönür adımız, naxışlara dil öyrədir Xudumuz, naxışına naxışımdan salam de!"

Ş.Əkbərzadə 1992-ci ildə Təbrizə səfəri zamanı isə vida dəqiqələri yetişdikcə doluxsunur, doğma yurddan, istiqanlı soydaşlarımızdan qopa bilmir, "dərdimi heç kimə aça bilmədim, hicranın əlindən qaça biımədim, zülmün sədlərini keçə bilmədim, çəmənlər əlvida, çöllər əlvida!" pıçıltısı ilə "Əlvida" şeirini yazır:

*Hələ bu dünyada qalmaq payım var,*
*Bəxtimin üzünə gülmək payım var,*
*Azadlıq yolunda ölmək payım var,*
*Obalar əlvida, ellər əlvida!*

"Utanım yerinə, qoç Koroğlu, din, düşmənin kimiydi – Həsən paşaydı. "Leş bir yana, baş bir yana" - deyirdin, qalağa vurduğun qardaş başıydı..." təəssüf və peşmanlığının yer aldığı "Qarabağsız qarabağlı" şeiri Şahmar Əkbərzadənin mövcud stereotipləri sındırıb keçmişin, babalarımızın qüsurlarını, eyni zamanda da müsirlərimizi, özünü tənqid atəşinə tutduğu ən kəskin etirazlarındandır. Sosialist realizminin süni şəkildə formalaşdırdığı qəhrəmanlıq miflərini dağıdan misralar əslində müstəbidlərin "parçala və hökm sür" siyasətini daha rahat reallaşdırmaqdan ötrü min-bir fitnə ilə şah babalarımızı üzbəüz qoyub vuruşdurduğunu, türk-müsəlman Şərqini qana çalxadığını anladır: "Utanım yerinə, Əmir Teymurum, əzdin Bəyazidi, qırdın tatarı... Sənin zəfərinlə sındı qürurum, yadlara qul oldu yurd balaları..." Ümumiyyətlə, iki qardaş ölkə - Azərbaycan və Türkiyə arasında ixtilaf salmaq istəyən qüvvələr daim əlləri altda hazır saxladıqları Səfəvi-Osmanlı problemini dövriyyəyə buraxırlar. Özgəsinə yarınmaq, supergüclərə xoş görünmək xisləti ilə alışıb yanan daxildəki "sapı özümüzdən olan baltalar"ın belə halları fürsət bilməsi eybəcər təzahürlərə gətirib çıxarır. Türk təəssübkeşi kimi görünmək, qardaş ölkənin gözünə girmək xatrinə Şah İsmayılı tənqid və təhqir atəşinə tutanlar isə bumeranq effekti ilə, opponentlərinə Yavuz Sultan Səlimi söydürmək məcburiyyətində qalırlar. Belə kor təəssübkeşlik sayəsində qazanan yenə də düşmənlərdir. Onunçün qardaşı qardaşa rəqib edən qanlı qovğaların bütün iştirakçıları qınanmalıdır. Necə ki, Əkbər oğlu Şahmar düz mövqedə və doğru fikirdə idi:

*Şah babam Xətai, ey Sultan Səlim,*
*"Çaldıran" deyəndə odlanıram mən.*
*Əsrlər keçsə də düzəlmir belim,*
*Sizin yerinizə utanıram mən...*

"48 ölçülü qadın paltarı" anasını vaxtsız itirmiş şairin çox sevdiyim və həmişə kövrəldiyim (bəlkə mənim də anam 52 yaşında dünyasını dəyişdiyinə görə) əsərlərindəndir. O məşum fevral günlərində həyatımı alt-üst edən hüzn (sonradan qəbir daşı üzərində) belə sətirlənmişdi:

*Hayanda ləngidi oğul-uşağın?..*
*Kəsdi qış qapını qarla, yağışla.*
*Ürəyim doluydu, əlim aşağı,*
*Nə palto, nə çəkmə aldım, bağışla,*
*Üşüyürsənmi, ana?!*



Növbəti müzakirədən sonra



Dayan gülüm, ayaqların üşüyər,
kirpiyimi qədəminə sərim qoy!


Ata sevgisinin cazibəsində

*Oğlu Elşən Əkbərzadənin xatirələrindən:*
*"Atam olduqca mehriban insan idi. Ailəsini, bizi çox sevirdi. Anam Mələk xanımla böyük məhəbbətlə ailə qurmuşdular. "Bitməsin", "Kipyimi qədəminə sərim qoy" şeirlərini anama həsr edib...*
*Türk dünyasının məşhurları ilə çox yaxın münasibətləri vardı. Çingiz Aytmatovla, Oljas Süleymenovla həddindən artıq yaxın olublar. Qazaxıstanın Xalq yazıçısı Muxtar Şaxanovla, XX əsrin məşhur şairləri Yevgeni Yevtuşenko və Rəsul Həmzatovla dostluq edirdi.*
*Elə-obaya çox bağlı idi. Hər il avqust ayında məzuniyyətə çıxır, istirahət üçün ilk getdiyimiz yer Ağdamın Çəmənli kəndi olurdu. Orda ən azı bir həftə qaldıqdan sonra ailəvi yığışıb Şuşaya üz tutardıq. Laçında Şəlvə dərəsi adlanan yerə aparardı bizi...*
*1988-ci il mitinqləri zamanı atam infarkt keçirdi - böyük qardaşım Tibb institutunda oxuyurdu, orda aktiv tələbələrdən olduğu üçün iki günlük həbsə salmışdılar. 1992-ci ildə Xocalı faciəsi baş verəndə ürəyi dözmədi, ikinci dəfə infarkt oldu. Dünyasını dəyişən günü mən Bakıda deyildim. Həmin gün qardaşımın böyük qızının ad günü idi, hədiyyə velosiped alıb verib ona. Bir stəkan çay içib, anamı da qardaşımgildə qoyub evə qayıdıb. Dəhlizə girər-girməz ürəyi tutub və yıxılıb. Elə oradaca keçinib...*

Anasızlaşmış Şahmarı da izləyən dərd dükanların vitrinlərindən baxır, hər dəfə gördüyü 48 ölçülü qadın libasları qəlbini yandırıb-yaxır, 48 ölçüdə nə görsə, nəbzi 48-ə enir, heç nə ala bilmədiyindən cibi pullarının məzarına dönür, çünki artıq həmin müqəddəs varlıq, qibləgah həyatda yoxdur. Paltar üçün yığdıqlarını onu son mənzilə yola salmağa xərcləyib. Təsəllisi isə anasının vətən torpağını əyninə geyib ölçüsüzlüyə qovuşması və bir də:

*Qalıb gözlərimdə murazım mənim,*
*Təsəllim bir şirin gümana qalıb,*
*Sevinmək qismətim qızım Zöhrənin*
*Ölçüsü 48 olana qalıb.*

"48 ölüçülü qadın paltarı tüstümü təpəmdən qalxızar göyə... Gələrəm, üstündə bitən otları gözümün yaşıyla əmizdirməyə..." dedi, amma gedə bilmədi. Yağı düşmənin Qarabağa, Ağdama, Çəmənliyə göz dikməsi yüz minlərlə soydaşımızı cənnətməkan yurd-yuvadan didərgin saldı, doğmalarının məzarını ziyarət eləmək arzularını gözündə qoydu. Ana itkisinin üzərinə Vətən dərdi də əlavə olundu:

*O vaxtdan payım nə, töhfələrim nə?*
*Oğul yox, ürəyi daş olmuşam mən!*
*Paltar əvəzinə, sənin əyninə,*
*48 ölçüdə daş almışam mən.*

Şahmarın nisgilli şeirlərinin bür neçəsi də çox sevdiyi ömür-gün yoldaşına, daha doğrusu, qarşıdakı ayrılıqlara, cismən mövcud olmayacağı dövrlərə yazılıb. Sanki amansız hicranın alovu qəfildən üzünü qarsımasın deyə, Mələk xanımı Şahmarsız zamana hazırlamağa, bir növ xəbərdarlıq eləməyə çalışıb: "Burax inadını, ay ömrüm-günüm, çəkilər göylərə harayım, ünüm. Dolaşar qəfildən ömür düyünüm, ayırar bu dünya bizi nə vaxtsa."

*Dağlayar qəlbini, dağlayar dağ-dağ,*
*Sinəmdə əcəlin çatdığı ocaq.*
*Tüstüsü gözünü yandırar, ancaq,*
*Üşüdər qəlbini közü nə vaxtsa.*

*Ha səslən, dağılmaz əbədi yuxum,*
*Burnunun ucunu göynədər qoxum.*
*Çarpaz dağlar çəkər sənə yoxluğum,*
*Çiləyər yarana duzu nə vaxtsa.*

Lakin təbii ki, nostalji hisslər, keçmişdən çağırış, ötənlərin xatırlanması dəyərli, yaddaqalan yaşantılar zəminində mümkündür – ömür möhlətində qazanılan sevgi, toplanmış mənəvi sərmayə buna imkan, şərait yaratmalıdır. Yəni, gözləntilər, umacaqlar sədəqə kimi deyil, ən azı verilən borc, sərgilənən həyat tərzinə adekvat şəkildə reallaşa bilər: "Məndən küsmə, gül nəfəsin töyşüyər, səni görüb bənövşələr pörşüyər, dayan gülüm, ayaqların üşüyər, kirpiyimi qədəminə sərim qoy!" Şahmar məhəbbətinin ülviliyi isə belə münaibətə tam haqq verirdi:

*Əl verirəm, əsdirirsən əlimi*
*Gül verirəm, küsdürürsən gülümü,*
*Yavaş yeri, yel dağıtmış telini*
*Ürəyimin tellərinə hörüm qoy !*

Vicdanın diqtəsi, mənliyin itirilməməsi, ləyaqətin uca tutulması müəllifin bütün yaradıcılığına hakimdir. O, köləliyi, qapazaltılığı, əzilmələri birmənalı şəkildə rədd edir, təkcə bəşər övladını yox, təbiətdəki digər varlıqları, nəsnələri də daim şax, vüqarlı, əyilməz görmək istəyir. Doğrudur, yaranışdan ayaq altda qalıb öz funksiyasını, missiyasını yerinə yetirən canlılar, əşyalar, məkanlar var, ancaq sayları elə də çox deyil: "Ayaqla torpağın öpüşməsindən doğulub böyüyür yollar həyatda. Tapdana-tapdana min illər boyu, ömür qazanıbdır ayaqlar altda.

*Gəlimli-gedimli yol nəsillərin,*
*ölməz abidəsi, əmanətidir.*
*Tapdanmaq - insanın şərəfsizliyi,*
*Tapdanmaq - yolların ləyaqətidir.*
*İnsan qədəminə tamarzı qalmaq,*
*Yolların bağrına çəkilən dağdır.*
*Dünyada ayaqlar altda yaşamaq,*
*Bircə yollar üçün alçalmamaqdır.*

Şahmar Əkbərzadənin ümumiyyətlə torpağa münasibəti "köhnə kişilər"in baxışıdır, Dədə Qorqud mövqeyidir: torpağı qorumadın əkib-becərməyə, becərmədin qorumağa dəyməz. Doğma el-obanı unudan-

larla sərt davranır, günü müvəqqəti xoş keçən yeri Vətən qərar verənləri suçlayır. İnsanın doğulub, boya-başa çatdığı məkana arxa çevirməsini həmin ərazini qətlə yetirməsi sayır, "Allah, bu torpağın kəsilib başı" deyə fəryad qoparır: "Ana torpaq dedik axı ona biz. Yığışın ay ellər, anamız ölüb! Bizə öz qoynunda yer verənimiz, ruzular yetirən dünyamız ölüb!"

*Yerlərə, göylərə sığmaz bu günah,*
*Qatil özümüzük, müsibətə bax!*
*Öləni torpağa gömərlər, Allah,*
*Bəs ölmüş torpağı harda basdıraq?*

Və yenə də Qarabağ... "Qarabağdan əsən yellər, cığırlarım yol olubmu? Mənsiz Damcı bulağının göz yaşları sel olubmu? Nəfəsiniz neçə kərə toxunubdur o yerlərə, nə dəmdədir Uzundərə, yemlikləri bal olubmu?" Həm də ki, Azərbaycanın ən dilbər guşələrinin xəritəsini çəkən bu şeir yazılanda hələ bir qarışı belə işğala məruz qalmamaışdı:

*Eşqabdala yetmir əlim,*
*Oda dönüb orda külüm.*
*Beşikliyə qonam, könlüm*
*Çevrilib bülbül olubmu?*
*Doğulduğum doğma yeri*
*Görməmişəm yazdan bəri.*
*Çəmənlinin çəmənləri*
*Həsrətimdən kül olubmu?*

Diqqət yetirdinizsə, doğma yerləri yazdan bəri görmədiyindən narahatdır. Misraların ab-havasından payısda yazıldığı anlaşılır, cəmi üç-dörd aylıq ayrılıq Şahmarı xeyli darıxdırıb.

Erməni təcavüzünün yaratdığı həsrət isə ölümünədək – 8 il çəkdi. Qarabağla nəfəs alan şairin ürəyi daha nə qədər dözəcəkdi ki?.. Amma bizim – Şahmarsevərlərin də təsəllisi, üzərində narahat ruhu dolaşan işğaldakı torpaqların tezliklə azadlığa qovuşacağı və onun öz sözünə sadiqliyidir:

*Qorxum yoxdur*
*Ömrün son nöqtəsindən!*
*Nöqtələşib torpaq içrə itəcəyəm.*
*Yer altından*
*Göy ot kimi baş qaldırıb*
*vergül-vergül bitəcəyəm...*

## ŞAİRİN ADINI DAŞIYAN ƏDƏBİYYAT TÖHFƏSİ

Şahmar Əkbərzadənin əziz xatirəsini yaşadanlar, ədəbi irsinin təbliğatçıları önündə şübhəsiz ki, "Vektor" Beynəlxalq Elmlər Akademiyası və qurumun prezidenti, professor Elçin İsgəndərzadə gəlir. Hər il türk dünyasının tanınmış şəxsiyyətləri Akademiyanın Fəxri Doktoru tituluna layiq görülürlər. Bu siyahıda Bəxtiyar Vahabzadə, Çingiz Aytmatov, Anar, Oljas Süleymenov, Muxtar Şahanov, Rauf Denktaş, Turan Yazgan, Namık Kemal Zeybek, İsmail Bozkurt, Ata Terzibaşı, Mustafa Cemil Krımoğlu, Serhat Kabaklı və digərlərinin adları var.

Ünlü şairimizin vəfatında sonra isə "Vektor", Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat Mükafatı təsis elədi. 2001-ci ildən etibarən ənənəvi şəkildə hər il laureatlar - görkəmli xarici ölkə şairi və Azərbaycan şairi, yaxud ədəbiyyatşünası Mükafat Komissiyası


Şahmar Əkbərzadə Mükafatının təqdimatı

tərəfindən müəyyənləşir. Mükafat alan şairlərin kitabları da adıçəkilən qurum tərəfindən yayımlanaraq oxuculara hədiyyə olunur. Nəzərə alınsa ki, nüfuzlu ödül iyirminci dəfədir təqdim edilir və laureatların 76 adda kitabı işıq üzü görüb, Vektor BEA-nın ədəbiyyatımıza hansı töhfələri verdiyi daha dolğun canlanar. Bu barədə şair Elçin İsgəndərzadəni dinləyək:

"Mənim ta uşaqlıq çağlarımdan oxuduğum üç şair olub: Rəsul Rza, Məmməd Araz və Şahmar Əkbərzadə. Bakıya gələndən sonra Rəsul müəllimlə çox qısa sürədə - 5-6 ay ərzində 3 dəfə görüşdük və sonra o, dünyasını dəyişdi. Məmməd Araz ilk kitabıma "Ön söz" yazdı, 20 ilə yaxın müəllim-tələbə çərçivəsində münasibətlərimiz vardı. Şahmar müəllim isə dostluq elədiyim ilk şairdir və mən hər gün Texniki Universitetdən çıxıb onun "Azərbaycan" nəşriyyatının 2-ci mərtəbəsindəki iş yerinə qalxar, 2-3 yaddaqalan saatımı sanki ikinci iş yerim sayılan "Mədəniyyət" qəzeti redaksiyasında keçirərdim. Aradakı ata-oğul yaş fərqinə rəğmən, bizi əkiz qardaş bilirdilər. Sonralar onun sayəsində dostlaşdığım Çingiz Aytmatov da məni Şahmarın özü, qardaşı, doğması kimi qəbul eləmişdi. Təəssüf ki, belə mərd, vətənpərvər, gözəl insan çox tez getdi, ürəyi Qarabağ dərdinə tab gətirmədi. Və bu itkiyə ən çox yananlardan bir də mənəm;  ailəvi əlaqələrimiz qalır, övladları ilə görüşüb söhbətləşirik, əziz xatirəsi unudulmur, mükafatlar verilir, əsərləri nəşr olunur, qəlbimizdə yaşayır, amma bütün bunlar Şahmar Əkbərzadənin həyatda boş qalan və görünən yerini doldurmur ki, doldurmur..."

- Elçin müəllim, mərhum şairin adına mükafatın təsisi ideyası necə yarandı?

- Təklifi mən irəli sürdüm, Elmi Şura üzvləri də böyük hörmət və razılıqla dəstəklədilər.  Artıq 20 ildir ki, Azərbaycanın və Türk dünyasının tanınmış yazarları "Vektor" Beynəlxalq Elmlər Akademiyası tərəfindən ödüllənir. İndiyə qədər Yavuz Bülənt Bakilər, İmdat Avşar (Türkiyə), Nadirbek Alımbekov (Qırğızıstan), Muxtar Şaxanov (Qazaxıstan), Əli Daşqın (Güney Azərbaycan), Orhan Aras (Almaniya), Vladimir Boyarinov (Rusiya), Aleksandr Navrotski (Polşa), Nəriman Həsənzadə, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Adil Mirseyid, Paşa Qəlbinur, Rəşad Məcid, Çingiz Əlioğlu, Qulu Ağsəs, Musa Urud, Vaqif Bəhmənli, Tofiq Abdin, Nizami Cəfərov, Azər Turan, Əjdər Ol, Fərid Hüseyn, Sayman Aruz, Rəsmiyyə Sabir və digər şair və ədəbiyyatşünaslar Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat Mükafatına layiq görülüblər. ❖

**Qurban Cəbrayıl**
Beynəlxalq Şahmar Əkbərzadə Mükafatı laureatı